**UOT 32**
**Sevil ƏLİYEVA**
*Dissertant, AMEA Fəlsəfə İnstitutu*

# MÜASİR AZƏRBAYCANDA UŞAQ MƏSƏLƏLƏRİ VƏ DEMOKRATİK TƏSİSATLAR*

Hazırda Azərbaycanda əhalinin 30 faizdən çoxunu uşaqlar təşkil edir. Bütün dünyada olduğu kimi Azərbaycanda da uşaq problemi cəmiyyətin və dövlətin diqqət mərkəzindədir. Ulu öndər Heydər Əliyev söyləyirdi ki, "bizim borcumuz gənclərə daha çox qayğı göstərməkdən, onların təhsil və tərbiyə işini, yaşayış şəraitini daha da yaxşılaşdırmaqdan və gələcək nəsil üçün daha yaxşı həyat qurmaqdan ibarətdir" (1, s.45). Azərbaycanda Ulu öndər Heydər Əliyev tərəfindən formalaşdırılan demokratik institutlar, o cümlədən uşaq təşkilatları da məhz bu istiqamətdə dövlət uşaq siyasətinə kömək etməyə başladılar.

Statistik göstəricilərdə müəyyən dəyişikliklərə baxmayaraq, bəzi uşaq problemləri bütün dünyada olduğu kimi qalmaqdadır. Azərbaycan reallığında bura ilk növbədə valideyn qayğısından məhrum olan uşaqların mövcudluğunu aid etmək olar. Qayğı müəssisələrində hələ də 14 000 dən çox uşaq yaşayır. Dövlət müəssisələrində yaşayan uşaqlara yetim uşaqlar, valideynlik hüquqlarından məhrum edilmiş valideynlərin uşaqları, müxtəlif səbəblərdən valideynlik öhdəliklərini yerinə yetirməyə qadir olmadıqlarını düşünən valideynlərin uşaqları, əlilliyi olan uşaqlar və ya yoxsulluqdan əziyyət çəkən ailələrin uşaqları daxildir. Dövlət qayğı müəssisələrindəki bütün uşaqların 65 %-i ümumi növ internat məktəblərin payına düşür və onların 7 faizi yetimdir. Bütövlükdə müəssisələrdəki uşaqların 10 faizini yetim uşaqlar təşkil edir (2, s.12).

Digər bir problem isə cəmiyyətə inteqrasiyanı təşkil etmək üçün alternativ qayğı müəssisələrinin və sığınacaqların kifayət qədər olmamasıdır. Həssas qrupdan olan uşaq və ailələrlə işin təşkili üçün sosial xidmətlərin, uşaq standartlarının yaradılması və ictimai yönümlü alternativ qayğı xidmətlərinin yaradılmasına ehtiyac duyulur.

Azərbaycanda uşaq ölümü göstəricilərinin hesablanması rəsmi və sorğu əsaslı məlumatlar arasında olan ciddi fərqlər səbəbi ilə çətinləşmişdir və bu problem bütün MDB ölkələri üçün səciyyəvidir. Bu fərq ondan irəli gəlir ki, hələ də neonatal ölüm göstəriciləri üzrə statistika aparılarkən hal-hazırda dünya standartı olan Ümumdünya Səhiyyə Təşkilatının müəyyən edilən diri doğulma meyarlarından deyil, keçmiş sovet dövründə istifadə edilən diri qalma meyarlarından istifadə edilir.

Azərbaycanda 5 yaşa qədər uşaq ölümü səviyyəsinin azaldılmasında əldə edilmiş əhəmiyyətli nailiyyətlərə baxmayaraq, bu vacib göstəricilər üzrə ölkəmiz hələ də dünya dövlətlərindən fərqlənir və bu fərq, təəssüf ki, heç də müsbətə doğru deyildir. Bu səbəbdən də prenatal qulluq sistemində islahat aparılması və onun beynəlxalq standartlar səviyyəsində yeni doğulmuşlara qulluq üzrə yeni qulluq təcrübələrini tətbiq etmək, erkən uşaqlıq dövrünün inkişafına xüsusi diqqət yetirmək, bu sahədə uşaq və ana qidalanması, yeni doğulmuşlara yardım üzrə və s. bu kimi proqramların geniş tətbiqi daha məqsədəuyğundur (2, s.13-14).

Qeyd olunanlarla yanaşı, Azərbaycanda uşaqlarla bağlı yaşanan problemlərə uşaq cinayətləri, onların azadlıqdan məhrum edilməsi, uşaq əməyinin istismarı, uşaqlara qarşı zorakılıq növlərinin tətbiqi, zərərli vərdişlərə aludəçilik, yetkinlik yaşına çatmayanların hüquq pozuntusu, küçə uşaqları və s. bu kimi problemləri aid etmək olar.

---

* Məqalə fəlsəfə ü.e.d. Rəna Mirzəzadə tərəfindən çapa məsləhət görülüb.

Kiçik qəsəbələrdə və kənd yerlərində insanların paytaxt şəhərə miqrasiya axını bəzən məktəbyaşlı uşaqların məktəb təhsili almaq hüquqlarını da təhlükə altında qoyur və bu ekstremal hallarda Bakı və digər böyük şəhərlərdə yaşayan küçə uşaqlarının sayının artmasına səbəb olur. Küçə uşaqları, öz ailələri ilə və ya qeydiyyatda olduqları qayğı müəssisəsi ilə əlaqələrini itirməmiş, lakin vaxtlarının çoxunu küçələrdə keçirən uşaqlardır. Belə uşaqlara, əsasən, qeyri-rəsmi gəlir əldə etmək imkanlarının olduğu Bakı, Sumqayıt şəhərlərində rast gəlmək olur. Küçə uşaqları təhsildən yayınmaya və sui-istifadəyə məruz qalan əsas risk qruplarındandır. Həm dövlət, həm də qeyri-dövlət təşkilatları bu uşaqlara kömək etmək üçün aktiv fəaliyyət göstərirlər. Bununla belə, küçə uşaqlarının sayı və onların küçələrdə yaşama səbəblərinə dair məlumatların əldə edilməsi lazımi səviyyədə olmaması müdaxilələrin əksər hallarda effektiv nəticə verməməsinə səbəb olur (2, s.14).

Digər bir məsələ erkən nikah problemidir. Azyaşlı qızlar üçün erkən nikahların mənfi nəticələrinə aşağıdakılar daxildir: erkən hamiləliyin həm ana, həm də uşağın səhhətində ciddi problemlər yaratması, orta və ali təhsilini davam etdirmək üçün qızların sahib olduqları imkanların azalması, ailələrindən və qohumlarından erkən yaşda ayrı salınan azyaşlı qızların psixoloji stresinin artması. Qanuni evlilik yaşı həm qızlar, həm oğlanlar üçün 18 yaş olduğu halda, bəzi müstəsna hallarda qızların 17 yaşında ailə qurmalarına icazə verilə bilər. Bəzi regionlarda isə bu icazə formasından çox istifadə edilir. Bunun daha bir səbəbi isə erkən evliliyin mənfi nəticələri barədə, istər könüllü, istərsə də valideynlərin məcburiyyəti ilə ailə quran qızların evliliyə dair məlumatlarının az olmasından irəli gəlir. Digər səbəb isə yerli səviyyədə uşaqların müdafiəsi üzrə müvafiq təlimlər aparan kadrların kifayət qədər olmamasıdır. Ailə qurmaq üçün təzyiqə məruz qalan, eləcə də artıq ailə qurmuş və bu evliliyin mənfi nəticələrini yaşayan azyaşlı qızlar məhz bu kadrlara və məktəb psixoloqlarına müraciət etməlidirlər. Məktəblərdə fəaliyyət göstərən psixoloqların bu sahədə bacarıqlarının artırılması və fəaliyyətlərinin daha geniş formada gücləndirilməsi məqsədəuyğundur (2, s.15).

Azərbaycanda uşaq problemini kəskinləşdirən obyektiv və subyektiv amillər mövcuddur. Obyektiv amillərə bunlar aiddir: qlobal problemlər, ekoloji fəlakətlər və onların mənfi nəticələri; Azərbaycanın məruz qaldığı Dağlıq Qarabağ münaqişəsi və onun uşaqlara vurduğu acınacaqlı zərbələr. Subyektiv amillərə gəldikdə, bunlara misal kimi, ailədaxili, qohumlararası, həmçinin fərdlərarası münaqişələri göstərmək olar. Əlbəttə, hər şəxsin formalaşmasında ailə mühitinin, ailə tərbiyəsinin, hətta yaxın doğmaların (nənə, baba, xala, bibi, dayı, əmi) rolu da əvəzsizdir.

Azərbaycan Respublikası ərazisinin 20%-nin işğal olunması nəticəsində 1 milyon nəfərdən çox Azərbaycan vətəndaşı öz doğma yurdlarını tərk edərək məcburi köçkün həyatı sürür. Məcburi köçkünlərin ümumi sayı 558 387, o cümlədən uşaqların sayı 195 994 nəfərdir. Müharibə şəraitində olan ölkədə müstəqilliyin ilk illərində uşaqlarla bağlı problemlərin həllində müxtəlif maneələr mövcud idi. Qaçqın və məcburi köçkün uşaqların əksəriyyəti təhsil və səhiyyə xidmətlərinin, içməli suyun çatışmazlığı, yod çatışmazlığı, ekoloji və bir sıra digər problemlərlə üz-üzə qalmışdılar.

Cəbhə bölgələrində atəşkəsin tez-tez pozulması uşaqların və ailələrin psixoloji və sosial-iqtisadi vəziyyətinə ağır təsir göstərir. Məhz bu səbəbdən respublikanın bu regionlarında xüsusi qayğıya ehtiyacı olan uşaqların sayı, digər bölgələrə nisbətən yüksəkdir. Qaçqın qadınların hamiləlik dövründə və uşaqların mütəmadi olaraq tibbi nəzarət altında saxlanılması və qeydiyyata alınması, onların tez-tez digər bölgələrə miqrasiya etmək məcburiyyətində olması ucbatından bir sıra çətinliklərlə üzləşir (3, s.15).

Nəzərə çatdıraq ki, artıq Azərbaycan müstəqillik qazandıqdan sonra beynəlxalq demokratik təsisatlar ölkəmizdə uşaq problemini həll etmək üçün milli demokratik institutlar və müvafiq dövlət orqanları ilə əməkdaşlığa başladı.

UNİCEF (BMT-in Uşaq Fondu) ilə Azərbaycanın əməkdaşlığı 1993-cü ildən başlamışdır. UNİCEF-in dəstəyi ilə Azərbaycan hökuməti ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatların dəstəyi ilə həssas qruplara aid olan uşaqların problemlərinin həll edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirir. Dövlətin xüsusi qayğı göstərdiyi belə həssas qruplardan biri valideyn himayəsindən məhrum olmuş uşaqlardır. Valideyn himayəsindən məhrum olmuş uşaqların müdafiəsi istiqamətində atılmış ən mühüm addımlardan biri "Deinstitusionalizasiya və ya alternativ qayğı üzrə Dövlət Proqramının (2006–2015-ci illər)" qəbul edilməsi olmuşdur. Xüsusi qayğıya ehtiyacı olan digər kateqoriyalı uşaqlarla – küçə uşaqları ilə reabilitasiya işinin aparılması üçün də müəyyən addımlar atılmışdır. UNİCEF-lə əməkdaşlıq nəticəsində 16 mütəxəssis "küçə uşaqları" ilə işləmək üçün təlim keçmişlər. Onların iştirakı ilə birbaşa olaraq küçə şəraitində reabilitasiya işlərinin aparılması üçün metod və formalar işlənmişdir. Hal-hazırda bu uşaqlar idman seksiyalarında və art- studiyalarda məşqlərə cəlb olunurlar. Bununla yanaşı, son illərdə UNİCEF ölkə hökumətini yuvenal ədliyyənin təkmilləşdirilməsi, uşaq evlərinə alternativ qayğı sisteminin yaradılması, HİV/QİÇS problemi haqqında gənclərin maarifləndirilməsi işində yaxından dəstəkləyir (4, s.24-25).

UNFPA (Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu) 1994-cü ildən Azərbaycanda reproduktiv sağlamlıq və əhalinin məqsədləri layihəsini dəstəkləməkdədir. "Cənubi Qafqazda reproduktiv sağlamlıq təşəbbüsü" adlı böyük həcmli layihə həyata keçirilmişdir. Layihənin əsas məqsədləri gənclərin reproduktiv sağlamlığını və reproduktiv hüquqlarını, sivil cəmiyyətdə produktiv fəaliyyətini təşkil etməkdir. Azərbaycanın şəhər və regionlarında gənclərin iştirakı, erkən nikahları, qohumluq nikahları, gender bərabərliyi, ev zorakılığı və s. layihə çərçivəsində müzakirə olunan əsas problemlərdir.

WHP (Dünya Qida Proqramı) Ermənistanın təcavüzü nəticəsində qaçqınların və onların uşaqlarının qida statusunu dəstəkləmək üçün Azərbaycanda 1993-cü ildə təcili qida proqramına başladı. Proqramın əsas məqsədi məcburi köçkünlər və onların uşaqlarını qida yardımı ilə təmin etməkdir.

1992-ci ildən UNHCR (BMT-in İnsan Hüquqları üzrə Ali Komisarlığı) ilə birgə əməkdaşlıq nəticəsində qaçqın və məcburi köçkünlərin və onların uşaqlarının yaşayış şəraitini yaxşılaşdırmağa dəstək verir.

CİE-nin (Təhsildə İnnovasiya Mərkəzi) məqsədi Azərbaycanda təhsil sisteminin keyfiyyətini və effektivliyini həyata keçirən təhsil ekspertlərin siyasətçilərə, məsləhət qruplarına kömək etməkdən ibarətdir. Qeyd etmək lazımdır ki, CİE Azərbaycanı müasir dövlətə çevirmək üçün müxtəlif inkişaf proqramları və pilot layihələri həyata keçirir. CİE inklüziv təhsil, müəllim treninqləri, korrupsiyaya qarşı təhsil, aktiv cəmiyyət məktəbləri, təkmilləşdirmə, ailə təhsili və ailə məsləhəti üçün proqramlar hazırlayıb.

UAFA-nın (Azərbaycana Birgə Yardım) Azərbaycanda əsası 1998-ci ildə qoyulub və bu məsələlər UAFA-nın diqqət mərkəzində saxlanılır: a) Dövlət qayğısında olan uşaqların sayının azaldılması (De-institusionalizasiya); b) Müəssisələrdə uşaqlara qayğı səviyyəsinin yüksəldilməsi (uşaq müəssisələrinin işçi heyətinə təlimlərin keçirilməsi); c) Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün sosial xidmətlərin inkişafı.

UAFA-nı digər təşkilatlardan fərqləndirən başlıca xüsusiyyəti məhz onun Azərbaycanda fəaliyyət göstərməsidir. Təşkilata hökumət tərəfindən heç bir maliyyə dəstəyi olmadan, Azərbaycandakı uşaq müəssisələrində uşaqların vəziyyətini qiymətləndirmək məqsədilə uşaq müəssisələrində, tədqiqat aparılmasına ehtiyac duyulduğu müəyyənləşdirilir. Uşaqların müəssisələrə düşməsinin səbəbləri üzrə tədqiqat aparıldı. Uşaqların müəssisələrə atılmasının əsas səbəbləri kimi, yoxsulluq, ailə dağılmaları və əlillik olduğu aydınlaşdırıldı. UAFA Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan Deinstitusionalizasiya və alternativ qayğı

xidmətləri üzrə dövlət proqramının həyata keçirilməsinə nəzarət edən Nazirliklərarası Koordinasiya Şurasının üzvü olmağa dəvət olunur.

Azərbaycanda uşaq problemləri ilə məşğul olan ən ciddi demokratik təsisatlardan biri Heydər Əliyev Fondudur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Fondun açılışı münasibətilə təşkil olunmuş mərasimdəki nitqində demişdir: "Fond Heydər Əliyevin siyasi irsini öyrənəcək, onu təhlil və tədqiq edəcək. Fondun qarşısında böyük vəzifələr durur. Fond ictimai təşkilatdır. Ümid edirəm ki, Azərbaycanın ictimai həyatında rolu böyük olacaqdır" (6, s.19).

Uşaqlara qayğı və diqqət, gələcək nəslin fiziki və mənəvi cəhətdən sağlam böyüməsi Heydər Əliyev Fondunun fəaliyyətində prioritet istiqamətlərdən biridir. Heydər Əliyev Fondu fəaliyyəti dövründə qısa müddət ərzində "Yeniləşən Azərbaycana – yeni məktəblər", "Talassemiyasız həyat", "Diabetdən əziyyət çəkən uşaqlara qayğı", "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Təhsilə dəstək" və s. bir sıra iri proqram və layihələr həyata keçirib və bəzilərinin reallaşdırılmasını davam etdirir (2, s.24).

Fond "Yeniləşən Azərbaycana − yeni məktəb layihəsi" çərçivəsində yüzlərlə məktəb binası inşa edərək müasir adavanlıqlarla təchiz etmişdir; "Təhsilə dəstək" layihəsi çərçivəsində ehtiyacı olan şagirdlərə, xüsusilə məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərini və Gürcüstanda yaşayan soydaşlarımızı dərs ləvazimatı ilə təmin edir, müasir uşaq bağçaları açır; "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində internatların yenidən qurulmasını və təmirini təşkil edir, onları müasir avadanlıqlarla təmin edir, yeni ədəbiyyatla zəngin kitabxana yaradır. İnformasiya- kommunikasiya texnologiyalarını tətbiq edir, sinif otaqlarını interaktiv təhsilə uyğunlaşdırır.

Heydər Əliyev Fondu yarandığı ilk gündən valideyn himayəsindən məhrum olmuş, dövlət müəssisələrində tərbiyə olunan uşaqların taleyini diqqət mərkəzində saxlayır. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində Fond tərəfindən 31 dövlət müəssisəsi əsaslı təmir edilmiş, bütün lazımi avadanlıqla təmin olunmuşdur.

Belə ki, Fond tərəfindən Uşaq evlərində tərbiyə almış yaşı 18-dən yuxarı olan qızlar yaşayış binalarında otaqla təmin edilmiş, uşaqlar üçün xeyriyyə aksiyaları, şənliklər təşkil edilmiş, uşaqların asudə vaxtlarının səmərəli keçməsini təmin edən yay düşərgələri təşkil edilmiş, şəkərli diabetdən əziyyət çəkən uşaqların psixoloji və sosial reabilitasiyası üçün düşərgələr yaradılmış, uşaqların xarici ölkələrdə təşkil edilən beynəlxalq tədbirlərdə iştirakı təşkil edilmiş, Azərbaycandan kənarda qardaş ölkələrin, xüsusilə təbii fəlakətlə üzləşən Pakistanın uşaqları üçün yeni orta məktəb açılmışdır.

Azərbaycanda uşaq problemlərinin həlli ilə məşğul olan bir çox milli demokratik təsisatlar da mövcuddur. Bu demokratik təsisatlardan biri də Azərbaycan Uşaq Fondudur. Görkəmli dövlət xadimi, yazıçı N.Nərimanovun təşəbbüsü ilə 1924-cü ildə sahibsiz, təminatsız uşaqların taleyi ilə bağlı V.İ.Lenin adına Sovet Uşaq Fondu yaranmış, 1987-ci ildə Ulu öndər Heydər Əliyev onu yenidən bərpa etmişdir. Sovet hakimiyyəti illərində Azərbaycan Uşaq Fondu kimi fəaliyyət göstərdi. Fond üç istiqamətdə iş görür: 1) Xeyriyyəçilik işləri; 2) Yerli təsisatlara rəhbərlik; 3)Hökumət, qeyri-hökumət və beynəlxalq təşkilatlarla əlaqələr. Fondun xeyriyyəçilik işi üç proqram üzrə qurulmuşdur: 1) Yetim və qaçqın uşaqlar; 2) Uşaqların təhsili və tərbiyəsi; 3) Uşaq sağlamlığı.

Uşaqların hüquqları üçün Azərbaycan QHT Alyansı Azərbaycanda uşaqlar üçün çalışan bir təşkilatdır. QHT birliyinin əsas nailiyyəti 30 QHT-nin, uşaqların, deputatların, dövlət orqanlarının iştirakı ilə uşaq problemləri ilə bağlı I Milli Konfransın keçirilməsi olmuşdur.

QHT Alyansı qısa müddət ərzində Uşaqlar üçün Qlobal Hərəkat Dünya Kampaniyasının iştirakçısı və Azərbaycan üzrə əlaqələndiricisi oldu. 2003-cü ildə Azərbaycan QHT Alyansı Mərkəzi və Şərqi Avropa və Mərkəzi Asiya regionunun 27 ölkəsinin uşaq hüquqları üzrə milli

şəbəkələrinin birliyini təşkil edən Mərkəzi və Şərqi Avropa, MDB və Baltikyanı ölkələrdə Uşaqlar üçün QHT-UNİCEF Regional Şəbəkəsinin üzvü oldu. Şəbəkənin üzvü kimi Azərbaycan QHT Alyansı Berlin və Sarayevo şəhərlərində "Uşaqlar üçün Yararlı Avropa və Mərkəzi Asiya Regionu" və Lyublyana şəhərində BMT-nin Baş katibinin BMT-nin Baş Assambleyasının xahişi ilə bütün dünya ölkələrinin həyata keçirdiyi "Uşaqlara Qarşı Zorakılıq" adı altında Avropa və Mərkəzi Asiya ölkələri üzrə Regional Avropa Məsləhətləşmə Konfranslarının iştirakçısı olub (6).

Azərbaycanda uşaqların müdafiəsi üzrə xüsusi müvəkkillik olmasa da, Azərbaycanın insan hüquqları üzrə Müvəkkilliyi (Ombudsman) uşaq hüquqlarının müdafiəsini də təmin edir. Müvəkkilin fəaliyyətində uşaq hüquqlarının müdafiəsi və bu sahədə maarifləndirmə işi mühüm yer tutur. Müvəkkil uşaq hüquqlarının müdafiəsi ilə bağlı tədbirlər həyata keçirir, bununla əlaqədar aidiyyati orqanlara təkliflər verir, həmçinin bu sahədə ixtisaslaşan beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Müvəkkil uşaq hüquqlarının müdafiəsi və təbliği ilə bağlı bir sıra beynəlxalq layihə və proqramların, o cümlədən, UNİCEF-in "Uşaqlar üçün yararlı dünya yaradaq" qlobal layihəsinin fəal iştirakçısıdır. Uşaq hüquqlarının müdafiəsinin səmərəli həyata keçirilməsi, onların problemlərinin həllində yardımçı olması üçün daxil olmuş şikayətlərlə bağlı bu və ya digər səlahiyyətli orqanlara sorğular göndərilir, həmçinin həmin ərizə və şikayətlərlə bağlı yerində araşdırmalar aparılır, qərarlar qəbul olunur. Bu sahədəki fəaliyyətin əlaqələndirməsi məqsədilə Ombudsmanın uşaq hüquqlarının müdafiəsi üzrə müşaviri təyin olunmuşdur.

Müvəkkil "20 noyabr – Ümumdünya uşaqlar günü" ərəfəsində ictimaiyyəti qan xəstəliklərindən əziyyət çəkən uşaqlara kömək etməyə çağırmış, qana ehtiyacı olan uşaqlara, xüsusən hemofiliya, talassemiya, leykemiya və digər xəstəliklərdən əziyyət çəkənlərə kömək məqsədilə on gün müddətində qan donorluğu aksiyası keçirmək təşəbbüsünü irəli sürmüşdür. Qeyd edilməlidir ki, Müvəkkil başda olmaqla aparatın əməkdaşları da bu xeyirxah missiyaya qoşularaq ongünlük aksiyanın davam edəcəyi günlərdə donor qanı vermişlər.

Əlil uşaqların diqqət və qayğıya daha çox ehtiyacının olduğunu nəzərə alaraq, Müvəkkil ağıldan qüsurlu uşaqlar üçün fəaliyyət göstərən internat evlərində hər bir xidmətçinin öhdəsinə düşən belə uşaqların sayının 18-20 nəfərdən 7-10 nəfərə endirilməsi ilə bağlı Nazirlər Kabinetinə təkliflə müraciət etmişdir.

Əksər ölkələrdə uşaq hüquqlarının müdafiəsi sahəsində ayrıca, müstəqil ombudsmanlar fəaliyyət göstərmir, onlar vahid İnsan hüquqları üzrə Ombudsmanın əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyən edilirlər. Lakin siyasi ədəbiyyatda, uşaq probleminin ciddiliyini və dünyanın 30 ölkəsində mövcudluğunu nəzərə alaraq, onun ayrıca bir istiqamətdə fəaliyyət göstərməsi zəruriliyini də qeyd etmək olar (7, s.127).

Beləliklə, inkişaf səviyyəsindən asılı olmayaraq bütün dünya ölkələrində uşaqlarla bağlı problemlər mövcuddur. Uşaqlarla bağlı problemlər bir tərəfdən həll olunsa da, digər tərəfdən qloballaşan dünyada bu, yeniləri ilə əvəz olunur. Qloballaşma, əhali artımı, urbanizasiya, texnologiya və s. bu kimi amillər aidiyyati təşkilatların bu istiqamətdə fəaliyyətinin davamlı olmasını tələb edir. Bu da əsas səbəblərdəndir ki, beynəlxalq təşkilatların intensiv fəaliyyətinə baxmayaraq, problem köklü olaraq öz həllini tapmır. Bütün dünyada olduğu kimi, Azərbaycanda da müxtəlif uşaq problemləri mövcüddur. Uşaq probleminin həlli üçün dövlət qurumları, demokratik təsisatlar, uşaq qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlar və s. fəaliyyət göstərərək uşaq probleminin həlli yolunda müəyyən nailiyyətlər əldə etmişdir. Lakin bununla belə, məqalədə ölkədə mövcud olan uşaq problemlərilə bağlı boşluqları da qeyd etdik. Belə qənaətə gəlmək olar ki, uşaq hüquqları insan hüquqlarının tərkib hissəsi olsa da, uşaq hüquqlarının spesifikliyi ona fərqli humanist yanaşma tələb edir. Bu gün sırf uşaq problemləri sahəsində müxtəlif kadrların- sosioloq, hüquqşünas, psixoloq, tərbiyəçilərin yetişdirilməsinə ehtiyac duyulur. Peşəkarlıq səviyyəsinin artırılması məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi təqdirəlayiq ola bilər. Bunun daha çox erkən uşaqlıq dövrünə − məktəbəqədər və

məktəb təhsilində tətbiq olunmasına xüsusi diqqət göstərilməlidir. Bir çox inkişaf etmiş ölkələrin təcrübələrində də göstərilmişdir ki, erkən uşaqlıq dövrünə qoyulan investisiya dövlətin gələcəyinə qoyulan investisiyalardandır.

**Açar sözlər:** *uşaq problemi, layihələr, beynəlxalq təşkilatlar, demokratik institutlar*

### İstifadə olunmuş ədəbiyyat

1. Heydər Əliyev və Mədəniyyət. Bakı: "Nurlar", 2008.
2. Azərbaycanda uşaqların müdafiə islahatları: əsas nailiyyətlər və çətinliklər //Ailə, qadın, uşaq. 2010, №5.
3. Əliyeva M. Uşaqlar bizim gələcəyimizdir, Azərbaycanın sabahıdır. Onların problemlərinə biganə qalmayaq // "Ailə, Uşaq, Qadın" jurnalı, 2010, №10.
4. Azərbaycan dövlət beynəlxalq təşkilatları, yerli QHT-lər: uşaq hüquqlarının təmin olunması üçün əməkdaşlığı və partnyorluğu – Azərbaycan Respublikası Uşaqlar üçün yararlı dünya. Məcmuə. Bakı, 2007.
5. Azərbaycan dövlətinə, xalqına xidmət etmək Heydər Əliyevin həyat amalı idi. Bakıda "Heydər Əliyev Fondunun açılış mərasimində Azərbaycan Prezidenti cənab İlham Əliyevin nitqi // "Dirçəliş – XXI əsr", aprel-may, 2004, №74-75.
6. Uşaq hüquqları üzrə Azərbaycan QHT Alyansı // www.pdoalliance.net
7. 5-летие России в Совете Европы и 25-летие Московской Хельсинкской группы. (Материалы международной конференции, Москва, 14-15 мая 2001 г.). М: Юриспруденция, 2002.

**Севиль АЛИЕВА**

## ДЕМОКРАТИЧЕСКИЕ ИНСТИТУТЫ И ПРОБЛЕМЫ ДЕТЕЙ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНЕ

### Резюме

В статье отмечается, что более 30 процентов населения Азербайджана составляют дети. Как и во всем мире детская проблема всегда стоит в центре внимания государства и общества. Автор отмечает, что особое внимание уделяется созданию детских учреждений для беспризорников, детей беженцев и перемещенных лиц, а также ранним бракам.

После обретения Азербайджаном независимости национальные демократические институты и соответствующие правительственные учреждения начали сотрудничать с международными демократическими институтами для решения проблемы детей в нашей стране. Среди них упоминаются Детский Фонд Организации Объединенных Наций, Фонд ООН в области народонаселения, Мировая Продовольственная программа, Центр инновационного образования. Кроме того, в статье говорится о деятельности многих национальных демократических институтов, в том числе Фонде Гейдара Алиева.

Далее автор затрагивает вопросы решения детской проблемы и указывает, что, хотя права детей являются частью прав человека, специфика прав детей требует иного, более гуманистического подхода, и вносит свои предложения.

**Ключевые слова:** *детские проблемы, проекты, международные организации, демократические институты.*

**Sevil ALIYEVA**

# CHILDREN'S ISSUES AND DEMOCRATIC INSTITUTIONS IN MODERN AZERBAIJAN

**Summary**

The article notes that more than 30 percent of Azerbaijan's population is children. As in the whole world, the children's problem is always at the center of attention of the state and society. The author noted thad a particular attention is paid to creation of and child's institutions for homeless the refugees and displaced persons's childs.

After Azerbaijan gained its independence, national democratic institutions and relevant government agencies began cooperating with international democratic institutions to solve the problem of children in our country. In this regard, the article mentioned UNICEF (United Nations Children's Fund), UNFPA (United Nations Population Fund), WHP (World Food Program), CIE (Center for Innovative Education) projects and results to address existing child problems in Azerbaijan. The activities of many national democratic institutions, including the Heydar Aliyev Foundation, have been mentioned.

In the end the author has pointed out that although children's rights are part of human rights, the specificity of children rights requires a different humanistic approach. In this regard the author has shown his suggestions.

**Keywords:** *child problems, projects, international organizations, democratic institutions.*